**AZƏRBAYCAN РЕСПУБЛИКАСЫ ТЯЩСИЛ НАЗИРЛИЙИ**
**БАКЫ ДЮВЛЯТ УНИВЕРСИТЕТИ**

*Əlyazması hüququnda*

**КАМРАН КАМИЛ ОЬЛУ СЯЛИМОВ**

# AZADLIQDAN MƏHRUMETMƏ YERLƏRİNDƏ İNSAN HÜQUQLARININ TƏMİNATI: BEYNƏLXALQ STANDARTLAR VƏ AZƏRBAYCAN RESPUBLİKASININ QANUNVERİCİLİYİ

**İxtisas: 5603.01 – Бейнялхалг щцгуг; инсан щцгуглары**

Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2013**

**Dissertasiya işi Bakı Dövlət Universitetinin "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedrasında yerinə yetirilmişdir**

**Elmi rəhbər:** hüquq üzrə elmlər doktoru, professor
Leonid Dmitriyeviç Timçenko

**Rəsmi opponentlər:** hüquq üzrə elmlər doktoru, professor
Aleksandr Aleksandroviç Merejko

hüquq üzrə elmlər doktoru, professor
Bəhram Səffan oğlu Zahidov

**Aparıcı təşkilat:** Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Akademiyası

Dissertasiyanın müdafiəsi 31 oktyabr 2013-cü il saat $14.^{00}$-da Bakı Dövlət Universiteti nəzdindəki FD.02.013 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir

**Ünvan:** AZ 1143, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23, I tədris binası, 901 saylı auditoriya

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat 27 sentyabr 2013-cü ildə göndərilmişdir.

FD. 02.013 Dissertasiya Şurasının

elmi katibi, hüquq üzrə fəlsəfə doktoru: Ə.Q.Məmmədov

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı** onunla şərtlənir ki, 1995-ci il 12 noyabr tarixli Azərbaycan Respublikasının Konstitusiyası insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi hesab edir. Həm də, Konstitusiyada öz əksini tapmış insan və vətəndaş hüquq və azadlıqları Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq müqavilələrə müvafiq olaraq tətbiq edilir. Beynəlxalq-hüquqi aktların prioriteti həmçinin cəza-icra qanunvericiliyi sahəsində öz əksini tapmışdır, ona görə ki, şəxs azadlıqdan məhrum edildikdə məcburən cəmiyyətdən təcrid olunur. Azərbaycan Respublikasının Konstitusiyası azadlıqdan məhrum edilmiş məhkumların hüquq və azadlıqlarına ümumqəbul olunmuş prinsiplərə və beynəlxalq hüquq normalarına, həmçinin Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsi olan, milli qanunvericiliklə bərabər səviyyədə tətbiq edilən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq təminat verir (148-ci maddənin 2-ci hissəsi). Bu nəinki milli qanunvericilikdə, habelə hüququ tətbiqetmə təcrübəsində öz əksini tapır.

Azadlıqdan məhrum edilmiş məhkumların hüquqi statusunun xüsusiyyətlərinə rəğmən, bu kateqoriya vətəndaşların konstitusion hüquqlarının siyahısı, həmçinin onların realizə edilməsi mexanizmləri Azərbaycan Respublikasının cəza-icra qanunvericiliyində nəzərəçarpacaq dərəcədə məhduddur. Bu məhdudiyyətlərə insan və vətəndaş hüquq və azadlıqlarının tənzimlənməsi sahəsində beynəlxalq-hüquqi aktlar əsasında, xüsusilə məhkumlarla davranışın minimal standart qaydalarına uyğun olaraq yol verilir. Hal-hazırda azadlıqdan məhrum edilmiş daha zəif kateqoriya məhkumların saxlanma şəraitini və onlarla ünsiyyət qaydalarını tənzimləyən, o cümlədən psixi pozuntusu, narkotik maddələrdən asılılığı olan, insan immunçatışmazlığı virusuna yoluxmuş şəxslərlə və tibbi yardıma ehtiyacı olan digər şəxslərlə, həmçinin yetkinlik yaşına çatmayanlarla, qadınlarla, habelə ömürlük həbs cəzası çəkənlərlə bağlı iyirmidən çox mühüm beynəlxalq-hüquqi aktlar qüvvədədir.

Azadlıqdan məhrumetmə yerlərində mənəvi, fiziki, psixoloji, seksual və digər zorakılığın, submədəni ənənələrin aşkar edilməsi və onların kökündən həll olunması böyük əhəmiyyət kəsb edir.

Bununla yanaşı, məhkumlara hüquqi yardım göstərilməsi, istintaq təcridxanalarında və müvəqqəti saxlama yerlərində saxlanılan şübhəli və təqsirləndirilən şəxslərin hüquqlarının mühafizəsi, məhkumların əməyinin və sosial təminatının təkmilləşdirilməsinin beynəlxalq-hüquqi əsasları, vicdan azadlığı və dini etiqad azadlığının təmin olunması sahəsində avropa standartlarının tətbiqi mühüm əhəmiyyət kəsb edir.

**Tədqiqat mövzusunun işlənmə dərəcəsi.** Azərbaycan alimləri tərəfindən bu problemlə bağlı xüsusi tədqiqatlar aparılmamışdır. Rusiya Federasiyasının bir sıra alimləri – F.M.Qorodineç, D.İ.İvaşin, V.V.Kaşoida, Q.L.Minankov, P.Q.Ponomaryov, D.V.Usik, V.A.Utkin, Q.Y.Fedoseyeva, S.M.Şimovolos və başqaları cəza-icra qanunvericiliyində məhkumların hüquqlarının beynəlxalq standartlara uyğun təmin edilməsi problemlərinin ayrı-ayrı aspektlərini araşdırmışlar.

Amma, qeyd olunan araşdırmalar əsasən azadlıqdan məhrum olmuş şəxslərlə yalnız ünsiyyət qurularkən beynəlxalq standartların realizə edilməsinə həsr olunmuşdur. Eyni zamanda, təkcə məhkumların deyil, tutularaq azadlıqdan məhrumetmə yerlərində olan bütün şəxslərin hüquqlarının mühafizəsi fənlərarası yanaşma əsasında (beynəlxalq və cəza-icra qanunvericiliyi rəhbər tutularaq) ətraflı təhlil olunmamışdır. Məhkumların islah edilməsi və yenidən tərbiyə olunmasının mühüm amili kimi onların əməyinin və sosial təminatının nizama salınmasının təkmilləşdirilməsinin beynəlxalq-hüquqi əsasları, azadlıqdan məhrumetmə yerlərində gizli zorakılığın və digər hüquqazidd hərəkətlərin kökündən kəsilməsi, o cümlədən işgəncələrin və submədəni ənənələrin qarşısının alınması araşdırılmamışdır.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyektini azadlıqdan məhrum edilmiş şəxslərin hüquqi statusuna dair beynəlxalq müqavilələrlə və Azərbaycan Respublikasının qanunvericilik normaları ilə tənzimlənən ictimai münasibətlər, həmçinin ayrı-ayrı daha zəif kateqoriyalı məhkumların hüquqlarının mühafizəsinin beynəlxalq-hüquqi standartları və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmət müəssisələrində cinayətlərin profilaktikası təşkil edir.

**Tədqiqatın predmetini** Azərbaycan Respublikasının azadlıqdan məhrumetmə yerlərində insan hüquqlarının tənzimlənməsini təmin edən beynəlxalq, cəza-icra, həmçinin cinayət və cinayət-prosessual hüquq normaları təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədini azadlıqdan məhrumetmə yerlərində şəxslərin saxlanılmasının beynəlxalq standartlarının təhlili, Azərbaycan Respublikası cəza-icra sisteminin təkmilləşdirilməsi haqqında Konsepsiyanın hazırlanması üçün nəzəri müddəaların əsaslandırılması, penitensiar sistemin hüquqtətbiqetmə təcrübəsində cəmiyyətdən təcrid olunmaqla bağlı məcburi tədbirlər görülərkən beynəlxalq standartların realizə edilməsi, cəza-icra qanunvericiliyi təkmilləşdirilərək orada beynəlxalq hüququn ümumqəbul olunmuş müddəalarının öz əksini tapması, azadlıqdan məhrumetmə növündə cəzanın icrası ilə bağlı penitensiar sistemin müəssisələrinin fəaliyyətinin effektivliyinin artırılması təşkil edir. Göstərilən məqsədlərə nail olmaq üçün müəllif tərəfindən qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- azadlıqdan məhrum edilmiş məhkumların hüquqi statusu ilə bağlı beynəlxalq-hüquqi standartların ümumi xarakteristikasını vermək;
- müvəqqəti saxlama yerlərində və istintaq təcridxanalarında saxlanılan şübhəli və təqsirləndirilən şəxslərin hüquqlarının mühafizəsinin təminatlarını hazırlamaq;
- məhkumlara hüquqi yardım göstərilməsinin işlək mexanizmini hazırlamaq;
- məhkumların əməyinin və sosial təminatının tənzim edilməsinin təkmilləşdirilməsi ilə bağlı qabaqcıl xarici ölkələrin təcrübəsini öyrənmək;
- məhkumların vicdan azadlığının və etiqad azadlığının təmin olunmasının beynəlxalq-hüquqi standartlarını təhlil etmək;
- azadlıqdan məhrumetmə yerlərində gizli zorakılıq və digər hüquqazidd hərəkətlərin aradan qaldırılması məsələlərini nəzərdən keçirmək;
- ayrı-ayrı daha zəif kateqoriyalı məhkumların hüquqlarının mühafizəsinin beynəlxalq-hüquqi standartlarını xarakterizə etmək;
- xarici ölkələrin təcrübəsi rəhbər tutularaq Azərbaycan Respublikası cəza-icra sisteminin təkmilləşdirilməsi Konsepsiyası layihəsinin əsas müddəalarını diqqətə çatdırmaq.

**Tədqiqatın metodoloji əsasını** elmi idrakın dialektik metodu, həmçinin məntiqlilik, müqayisəli-hüquqşünaslıq, statistik, konkret-sosioloji, habelə hüquqi hadisələrin tədqiqinin digər xüsusi-elmi metodları təşkil edir.

**Tədqiqatın normativ bazasını** insan hüquqları sahəsində beynəlxalq-hüquqi aktlar, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi, Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, Azərbaycan Respublikasının Əmək Məcəlləsi və digər normativ hüquqi aktlar təşkil edir.

**Tədqiqat işinin nəzəri əsasını** cəza-icra hüququ, cinayət hüququ, cinayət prosesi və beynəlxalq hüquq sahəsində tanınmış alimlərin - Y.K.Aleksandrovun, O.A.Antonovun, V.V.Bajenovun, A.Bayramovun, N.P.Barabanovun, L.A.Berezenkonun, A.O.Buyanovun, F.M.Qorodinsevin, A.V.Daudovun, Q.D.Doljenkovanın, A.B.Dudayevin, Y.V.Yemelyanovanın, M.B.Əhmədovun, A.İ.Əliyevin, E.A.Əliyevin, M.S. Qafarovun, A.M.Hüseynovun, M.Ə.Cəfərquliyevin, Ə.Q.Məmmədovun, A.A. Məhərrəmovun, F.Y.Səməndərovun, R.F.Məmmədovun, A.A. Merejkonun, İ.M.Rəhimovun, K.N.Səlimovun, N.R.Şəmiyevanın, L.D.Timçenkonun, O.F.Əfəndiyevin, V.A.Zoborskinin, O.V.Zaxarixinanın, A.O.Zubovanın, D.İ.İvaşinin, V.İ.Karetnikovun, Y.L.Kiryuxinanın, K.N.Lobanovun, Y.Y.Mazurinanın, A.N.Oleynikin, A.N.Pavluxinin, P.Q.Ponomaryovun, T.M.Sadinovun, Y.Y.Tutbalinin, D.V.Usikin, V.A.Utkinin, Q.Y.Fedoseyevanın, V.İ.Xijnyakın, M.M.Şakiryanovun və s. əsərləri təşkil edir.

Həmçinin, müxtəlif vaxtlarda qeyd olunan problemin ayrı-ayrı aspektlərini araşdıran milli alimlərin əsərlərindən istifadə olunmuşdur.

**Tətqiqatın emprik bazasını** ömürlük həbs cəzasına məhkum edilmiş, cəzalarını Qobustan həbsxanasında çəkən 235 məhkumla sorğunun aparılması təşkil edir.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, ilk dəfə olaraq fənlərarası yanaşma əsasında Azərbaycan Respublikasının azadlıqdan məhrumetmə yerlərində insan hüquqları sahəsində beynəlxalq standartların təmin edilməsinin problemləri araşdırılmışdır.

Dissertasiyada Azərbaycan Respublikasında nəinki azadlıqdan məhrumetmə növündə cəzanın icrası zamanı, həm də barələrində həbs qətimkan tədbiri seçilmiş şübhəli və təqsirləndirilən şəxslərin həbsdə saxlanıldığı zaman beynəlxalq standartların realizə olunması problemləri tədqiq edilmişdir.

Dissertasiya tədqiqatının müdafiəyə çıxarılan **əsas müddəaları** aşağıdakılardır:

1) Azadlıqdan məhrum edilmiş məhkumların hüquqi statusunun ikiüzvlü tövsifi təklif edilir:

a) əsas;

b) xüsusi;

2) Beynəlxalq standartların tətbiq edilməsi ilə bağlı:

a) Beynəlxalq standartların müfəssəl öyrənilməsi, həmçinin beynəlxalq standartların Azərbaycan Respublikasının milli hüquq sisteminə tətbiqi təklif edilir. Onların arasında 1948-ci il 10 dekabr tarixdə Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən qəbul edilmiş "İnsan hüquqları haqqında Ümumi Bəyannamə"ni, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" 1950-ci il 4 noyabr tarixli Roma Konvensiyasını, Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən 1966-cı il 16 dekabr tarixdə qəbul edilmiş "Mülki və siyasi hüquqlar haqqında beynəlxalq pakt"ı, Birləşmiş Millətlər Təşkilatının 1976-cı il 23 mart tarixli "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktına dair birinci Fakultativ Protokolunu, Birləşmiş Millətlər Təşkilatının 1989-cu il 15 dekabr tarixli "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktına dair ikinci Fakultativ Protokolunu, Birləşmiş Millətlər Təşkilatının 1995-ci il 30 iyun tarixli "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyasını, Birləşmiş Millətlər Təşkilatının "İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı" 10 dekabr 1984-cü il tarixli Konvensiyasını, Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən 1990-ci il 14 dekabr tarixdə qəbul etdiyi "Azadlıqdan məhrum etmə tədbirləri ilə bağlı olmayan BMT-nin "Standart minimum Qaydaları"nı (Tokio Qaydaları), Birləşmiş

Millətlər Təşkilatının 1955-ci ildə qəbul etdiyi "Məhkumlarla rəftara dair standart minimum Qaydalar"ı, Birləşmiş Millətlər Təşkilatının 1990-cı il 14 dekabr tarixli "Məhkumlarla rəftara dair əsas prinsiplər"ı qeyd etmək olar.

b) Həmin beynəlxalq standartların azadlıqdan məhrumetmə yerlərində nəzarəti həyata keçirən orqanların fəaliyyətlərində tətbiqi, yəni müvəqqəti saxlama yerlərində, istintaq təcridxanalarında və cəzaçəkmə yerlərində tətbiq olunması.

3) Ilkin həbs yerləri olan müvəqqəti saxlama yerləri və istintaq təcridxanaları məsələsinə münasibətdə aşağıdakı təkliflər verilir:

a) müvəqqəti saxlama yerləri və istintaq təcridxanalarının fəaliyyətlərinə nəzarəti həyata keçirə bilən, ixtisaslaşdırılmış komissiya formasında ictimai təşkilatların iştiraklarına imkan verən xüsusi qaydaların qəbul edilərək təsdiq olunması;

b) Müvəqqəti saxlama yerləri və istintaq təcridxanalarının cinayət-prosessual xarakterli istintaq hərəkətlərini həyata keçirən orqanların nəzarətindən çıxarılaraq, müvəqqəti saxlama yerləri və istintaq təcridxanalarını şübhəli şəxslə bağlı cinayət-prosessual hərəkətlərini həyata keçirən istintaq orqanları ilə birbaşa əlaqəsi olmayan orqanın nəzarətinə verilməsi;

c) Qətimkan tədbiri qismində ev dustaqlığı forması seçilərək GPS elektron qolbaq kimi müasir texniki vasitələrin tətbiq edilməsi məsələləri ilə bağlı Avropa İttifaqı dövlətlərinin və Amerika Birləşmiş Ştatlarının təcrübəsinin öyrənilərək tətbiqi;

4) Şübhəli şəxslərə, həmçinin artıq məhkum edilmiş şəxslərə yüksək keyfiyyətli təmənnasız hüquqi yardım göstərilməsi məsələləri ilə bağlı:

a) Şübhəli şəxslərə, təqsirləndirilən şəxslərə və məhkumlara yüksək keyfiyyətli hüquqi yardım göstərilməsi, peşəkar vəkillər tərəfindən onların müdafiəsinin real təmin edilməsi məqsədilə, təşkilati-hüquqi xarakterli kardinal tədbirlərin görülməsi məqsədəuyğun sayılaraq Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətində təyinat üzrə vəkillərin əməyinin ödənilməsinin stimullaşdırılmasını nəzərdə tutan xüsusi fondun yaradılması təklif edilir;

b) yerli icra hakimiyyəti orqanlarının büdcəsi hesabına təyinat üzrə iştirak edən vəkillərin əməyinin ödənilməsinin maliyyələşdirilməsi mexanizminin hazırlanması təklif edilir;

5) Azərbaycan Respublikasının cəzaları icra edən müəssisələrdə məhkumların məşqulluğunun təmin edilməsi və istehsalat fəaliyyətinin təşkili problemlərinin əsaslı həlli ilə bağlı aşağıdakı tədbirlərin görülməsi zəruridir:

a) Azərbaycan Respublikası Penitensiar Xidməti müəssisələrinin istehsalat sahələri üçün vergi güzəştlərinin müəyyən edilməsi;

b) Cəzaları icra edən müəssisələrdə məhkumların hüquqi statusundan və təsərrüfat subyekti kimi istehsalat sahələrinin xüsusiyyətlərindən asılı olaraq vergi güzəşt və imtiyazları ilə bağlı fərqli siyasətin həyata keçirilməsi məqsədəuyğun sayılır. Hesab olunur ki, bu zaman onlar xüsusi əlamətlərə malik ayrı vergi ödəyicisi qrupuna aid edilməlidir;

c) "Dövlət satınalmaları haqqında" 2001-ci il 27 dekabr tarixli Azərbaycan Respublikasının Qanununa azadlıqdan məhrumetmə yerlərində məhkumların məşqulluğunu təmin edən, həmçinin Azərbaycan Respublikasının Penitensiar Xidmətində fəaliyyət göstərən istehsalat sahələrində istehsal olunan malların və göstərilən xidmətlərin dövlət vəsaiti hesabına satın alınmasını nəzərdə tutan əlavələr edilsin. Bu məqsədlə Azərbaycan Respublikasının Penitensiar Xidmətində fəaliyyət göstərən istehsalat sahələrində istehsal olunan müəyyən nomenklatura malların dövlət satınalmalarını tənzimləyən normativ hüquqi bazanı təkmilləşdirmək zəruridir. Ona görə də dövlət satınalmaları haqqında müvafiq təlimat və ya qaydalar hazırlanaraq təsdiq olunması üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilməlidir;

d) Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 95.1-ci maddəsinə əlavə və dəyişiklik edilərək həmin maddədə azadlıqdan məhrum edilmiş məhkumların dövlət və ya xüsusi müəssisələrdə hər cür əməyinin könüllü olması, bu əməyin məcburi əməyə bərabər tutulmaması və əməyin mühafizəsi haqqında qaydalara uyğun olmasının öz əksini tapması təklif olunur;

e) Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinə bu məzmunda 95.7-ci maddənin əlavə edilməsi məqsədəmüvafiq sayılır: “Məhkumların əmək fəaliyyətinə cəlb edilməsinə, yalnız onların əmək fəaliyyətinə fiziki və psixoloji cəhətdən yararlı olmaları tibb işçisi tərəfindən təsdiq edildikdən sonra yol verilir”.

6) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarı ilə təsdiq edilmiş “Məcburi dövlət sosial sığorta ödəmələrinin və əmək qabiliyyətini müvəqqəti itirmiş işçilərə işəgötürənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə”yə ödənişli əməyə cəlb olunmuş azadlıqdan məhrum edilmiş şəxslərin məcburi dövlət sığortası ilə bağlı normalar əlavə edilsin.

7) Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 10.2.5-ci maddəsi dəyişdirilərək bu redaksiyada verilsin: “Tutulmuş və həbs olunmuş şəxslərin, həmçinin azadlıqdan məhrumetmə yerlərində cəza çəkən məhkumların ilk tibbi yardım daxil olmaqla, tibbi rəydən asılı olaraq ambulator və ya stasionar şəraitdə tibbi yardım almaq, o cümlədən dövlət və qeyri-dövlət tibb müəssisələrində yüksək ixtisaslı həkimlər tərəfindən mürəkkəb tibb texnologiyaları tətbiq edilməklə müayinə olunmaq və müalicə almaq hüququ vardır”.

8) Avropa Şurası Nazirlər Kabinetinin 1982-ci il 24 sentyabr tarixli R nömrəli (82)16 məhbuslara qısamüddətli məzuniyyətlərin verilməsi haqqında tövsiyələrini nəzərə alaraq aşağıdakı şərtlər daxilində məzuniyyət hüququnun liberallaşdırılması təklif edilir: cinayətin təbiəti, ağırlıq dərəcəsi, törədilmiş cinayətə görə verilmiş cəzanın və çəkilmiş cəzanın müddətindən asılı olaraq; cinayətkarın şəxsiyyəti, davranışı və ona məzuniyyət verildiyi təqdirdə cəmiyyət üçün mümkün ola biləcək riski; cinayətkarın azadlıqdan məhrumetmə yerində olduğu müddətdə dəyişilməsi mümkün olan ailə və sosial vəziyyəti, məzuniyyətin məqsədi və onun müddəti.

9) Məhkumların dini etiqad azadlığının realizə edilməsinin təşkili məqsədilə həbs edilmiş, azadlıqdan məhrum edilmiş bütün şəxslər üçün əsas Qaydalar olan Avropa Penitensiar Qaydalarına müvafiq olaraq Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin "Məhkumların vicdan və dini etiqad azadlığının təmin edilməsi" adlanan 13-cü maddəsinin məzmununa dini xadim institutu əlavə edilsin (müxtəlif konsessiya və dinlərin nümayəndələri tərəfindən xidmət – kapellanlıq institutu, yəni ruhanilərin azadlıqdan məhrumetmə yerlərində saxlanılan şəxslərlə ünsiyyəti).

10) Qeyd olunan şəxslərə işgəncələrəin verilməsinə qarşı beynəlxalq standartların daha effektiv implementasiyası üçün təklif olunur: Avropa Şurasının işgəncələrə qarşı Komitəsinin qərarlarının hüquqi statusunu tənzimləyərək onların milli hüquq sisteminə implementasiyası; Avropa Şurası İnsan Hüquqları üzrə Komitəsinin və beynəlxalq ekspertlərin iştirakı ilə daim fəaliyyət göstərən monitorinq qrupunun yaradılması; "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" 1999-cu il 18 noyabr tarixli Azərbaycan Respublikasının Qanununa əlavə və dəyişikliklər edilərək həmin Qanunda müstəqil ekspertiza institutunun yaradılmasının nəzərdə tutulması; Azərbaycan Respublikasında işgəncələrə qarşı xüsusi komissiyanın yaradılması; Birləşmiş Millətlər Təşkilatının "İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı" 10 dekabr 1984-cü il tarixli Konvensiyasının müddəalarının realizə edilməsinin effektivliyinin artırılması məqsədilə, Azərbaycan Respublikasında işgəncə qurbanlarının reabilitasiya mərkəzinin yaradılması.

11) Azadlıqdan məhrumetmə yerlərində cinayət (submədəni) ənənələrinin kökündən kəsilməsi məqsədilə Avropa Penitensiar Qaydalarına müvafiq olaraq təklif edilir: azadlıqdan məhrumetmə yerlərində cinayətkarlıqla bağlı vahid informasiya sisteminin yaradılması və hüquq pozuntusu törədənlərin intizam məsuliyyətinə cəlb edilməsi; "qanuni oğru"ların və onların əlaltılarının ümumi məhkum kütləsindən təcrid olunması təcrübəsinin davam etdirilməsi; müasir psixologiya

və pedaqogika elminin nəaliyyətlərindən istifadə olunmaqla həm ümumi, həm də fərdi qaydada tərbiyə işinin gücləndirilməsi; "oğru qanunları"nın qarşısının alınması üçün məhkumların və onların ailələrinin ictimai dəstək Fondunun yaradılması.

12) QİÇS-in yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinə məhkumların bərabər və müvafiq standart tələblərə cavab verən bu cür tibbi xidmətlər almaq hüququnun olması: QİÇS-ə qarşı testin keçirilməsi yalnız könüllülük əsasında həyata keçirilir; QİÇS-ə qarşı keçirilmiş testin cavabı müsbət olan məhkumlar azadlıqdan məhrumetmə yerlərində olduqları müddətdə məsləhət və onlara kömək edəcək digər müvafiq tibbi xidmətlərdən yararlanmaq hüququna malikdirlər; məhkumların və ya həbs yerində saxlanılan şəxslərin fiziki və psixoloji sağlamlığını mühafizə etmək səhiyyə işçilərinin vəzifə borcudur. Səhiyyə işçiləri digər şəxslərə göstərdikləri səviyyə və keyfiyyətdə müalicəyə ehtiyacı olan məhkumların və ya həbs yerində saxlanılan şəxslərin müalicəsini təmin etməlidirlər.

13) Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 128.1-ci maddəsinə əlavə və dəyişiklik edilərək həmin maddə bu redaksiyada verilsin: "On səkkiz yaşına çatmış məhkumlar bir qayda olaraq tərbiyə müəssisələrindən cəzaçəkmə müəssisələrinə keçirilirlər. Müəssisənin müdiriyyətinin qərarına əsasən məhkumlar onlara təyin olunmuş cəza müddətlərinin sonuna kimi tərbiyə müəssisələrində saxlanıla bilərlər".

14) Milli cəza-icra sisteminin inkişafı şəraitində azadlıqdan məhrumetmə yerlərindən azad edilmiş şəxslərin sosial reabilitasiyasının və yenidən ictimai həyata qaytarılmasının effektivliyinin artırılması məqsədilə "Azadlıqdan məhrumermə yerlərindən azad edilmiş qadınların sosial reabilitasiyası haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsinə zərurət vardır. Məhkum edilmiş qadınların həm cəzalarını çəkdikləri dövrdə, həm də azad olunduqdan sonra təhsil almaq və işə düzəlmək üçün kontragentlərlə müqavilə münasibətlərinin inkişafı.

15) Azadlıqdan məhrum edilmiş psixi pozuntusu olan məhkumların hüquq və qanuni maraqlarının müdafiəsinin gücləndirilməsi məqsədilə təklif edilir: azadlıqdan məhrumetmə növündə cəza çəkən, psixi pozuntusu şübhə doğuran şəxslərin tibbi müayinədən keçirilməsi; cəzaçəkmə müəssisələrində ixtisaslaşdırılmış tibbi xidmətin olmaması səbəbindən səhiyyə sektoru və tibbi xidmət yerləri arasında koordinasiya planının hazırlanması; Azərbaycan Respublikasının əhalisi arasında psixi xəstəliklərin profilaktikası barədə dövlət proqramı hazırlanarkən azadlıqdan məhrumetmə yerlərində psixi pozuntusu olan şəxslər üçün xüsusi reabilitasiya tədbirlərinin nəzərdə tutulması; azadlıqdan məhrumetmə yerlərindən azad edilmiş psixi pozuntusu olan şəxslər barəsində xüsusi psixi reabilitasiya tədbirlərinin hazırlanması.

16) Ömürlük həbs cəzasına məhkum edilmiş, cəzalarını Qobustan həbsxanasında çəkən 235 məhkumla aparılan sorğu əsasında məhkumların saxlanılması şəraitinin yaxşılaşdırılması təklif edilir; "Uzun müddətə azadlıqdan məhrum edilmiş məhkumlarla ünsiyyət haqqında" Avropa Şurası Nazirlər Kabinetinin 1976-cı il 17 fevral tarixli qətnaməsini (76) rəhbər tutaraq, ömürlük həbs cəzasına məhkum edilmiş şəxslərin cəzalarını faktiki olaraq 8 ildən 14 ilə kimi çəkdikdən sonra vaxtından əvvəl şərti olaraq azad edilməsinin qanunvericilikdə öz əksini tapması məqsədəuyğun sayılır. Müəyyən müddət bitdikdən sonra ümumi əsaslarla azadetmə məsələsinin baxılmasından imtina olunduqda.

17) Xarici ölkələrin təcrübəsi əsasında cəzaları icra edən müəssisə və orqanların işinin effektivliyinin, o cümlədən azadlıqdan məhrumetmə yerlərində saxlanılan şəxslərlə ünsiyyətin avropa standartları səviyyəsinə yüksəldilməsini nəzərdə tutan Azərbaycan Respublikası cəza-icra sisteminin təkmilləşdirilməsi haqqında dövlət proqramının hazırlanması və s.

**Dissertasiyanın nəzəri əhəmiyyəti** ondan ibarətdir ki, onun məzmunundan, əsas müddəalarından və dissertasiya tədqiqatının

nəticələrindən gələcək elmi tədqiqatlarda, həmçinin müvafiq tədris-metodiki vəsaitlərin hazırlanmasında istifadə edilə bilər.

**Tədqiqatın praktiki əhəmiyyəti** ondan ibarətdir ki, dissertasiyada irəli sürülən ideya və müddəalar dövlət orqanları, onların struktur bölmələri və vəzifəli şəxslər tərəfindən cəza çəkən məhkumlarla bağlı milli qanunvericiliyin, digər normativ hüquqi aktların və başqa sənədlərin hazırlanmasında istifadə edilə bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universitetinin "Beynəlxalq hüquq" və "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedralarında yerinə yetirilmiş, həmin kafedraların birgə iclasında müzakirə olunaraq açıq müdafiəyə tövsiyə edilmişdir.

Tədqiqatın əsas müddəaları müəllifin nəşr olunmuş elmi əsərlərində, həmçinin beynəlxalq və respublika səviyyəli elmi-praktiki konfranslarda edilən çıxışlarda, məruzələrdə, seminarlarda, habelə Bakı Dövlət Universitetində "Avropa hüququ" kursu üzrə oxunan mühazirələrdə aprobasiya olunmuşdur.

Müəllif "Azadlıqdan məhrumetmə yerlərində ictimai müşahidə" adlı qeyri-hökumət təşkilatında mütəxəssis kimi işlədiyi dövrdə etdiyi şəxsi müşahidələrindən, qeyd olunan qeyri-hökumət təşkilatının materiallarından və monitorinqlərin nəticələrindən dissertasiya tədqiqatında geniş istifadə etmişdir.

**Tədqiqat işinin strukturu** tədqiqatın predmeti, məqsədləri və vəzifələri ilə şərtlənir. Dissertasiya girişdən, on yarımfəsli əhatə edən üç fəsildən, nəticədən və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

# İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** dissertasiya mövzusunun aktuallığı əsaslandırılır, onun araşdırma dərəcəsi və empirik əsasları göstərilir, tədqiqatın obyekti, məqsəd və vəzifələri, metodoloji və nəzəri əsasları müəyyən edilir, işin yeniliyi qeyd olunur, müdafiəyə çıxarılan əsas müddəalar formalaşdırılır, elmi və təcrübü əhəmiyyəti, həmçinin aparılmış tədqiqatın aprobasiyası haqqında məlumatlar açıqlanır.

**"Azadlıqdan məhrum edilmiş məhkumların hüquqi statusu ilə bağlı beynəlxalq müqavilələrin və Azərbaycan Respublikası qanunvericiliyinin əsas müddəaları"** adlanan **birinci fəsli** beş yarımfəsildən ibarətdir. ***Birinci yarımfəsildə*** müəllif tərəfindən ilk dəfə olaraq "azadlıqdan məhrumetmə yerlərində məhkumların hüquqi vəziyyəti" anlayışının kompleks şəkildə tədqiq olunmasına cəhd edilmişdir. Göstərilir ki, nəinki Azərbaycan Respublikasında, hətta dünyanın inkişaf etmiş əksər ölkələrinin qanunvericiliklərində qeyd olunan anlayışın məzmunu tam açılmamışdır, onun beynəlxalq aspektləri isə ümumiyyətlə lazımi hüquqi qiymət almamışdır. Həmin anlayışın dəqiq hüquqi məzmunu yoxdur. Bu aspektdə müəllif azadlıqdan məhrum edilmiş məhkumların hüquqi statusunun ikiüzvlü tövsifini təklif edir: 1) əsas və 2) xüsusi. Qeyd olunur ki, beynəlxalq-hüquqi standartların məqsədi belə şəxslərin cəmiyyətə uğurlu şəkildə qayıtmaq imkanlarının təkmilləşdirilməsindən və azadlıqdan məhrumetmə yerlərindən azad edildikdən sonra qanunlara riayət etməklə həyat sürmələrinə nail olmaqdan ibarətdir. Onların azadlıqdan məhrumetmə yerlərindən azad edildikdən sonra qanunlara riayət etmələri cinayətlərin profilaktikasında mühüm amildir.

Müəllifin fikrincə, müasir dövrdə azadlıqdan məhrumetmə yerlərində olan şəxslərin hüquqlarının mühafizəsi ilə bağlı universal beynəlxalq standartların artması ilə yanaşı, onların realizə olunmasına nəzarət mexanizminin effektivliyini də yüksəltmək lazımdır. Yüksək sosial-iqtisadi, ictimai-siyası inkişafa, həmçinin inkişaf etmiş vətəndaş cəmiyyətinə malik dövlətlər daha çox beynəlxalq-hüquqi standartların həyata keçirilməsinə cəhd göstərirlər. Və əksinə, zəif sosial-iqtisadi, siyasi sistemə malik dövlətlər isə adətən, beynəlxalq-hüquqi normaların tələblərini inkar edirlər. Bir qayda olaraq, Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi sənədlərə tam əməl olunmur, bəzən isə tam inkar edilir

(məsələn, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 1993-cü il 30 aprel tarixli 822 nömrəli qətnaməsi, 1993-cü il 29 iyul tarixli 853 nömrəli qətnaməsi, 1993-cü il 14 oktyabr tarixli 874 nömrəli qətnaməsi və 1993-cü il 12 noyabr tarixli 884 nömrəli qətnaməsi). Eyni zamanda, Avropa Şurasının və Avropa İttifaqının qəbul etdiyi sənədlər üzərində ümumavropa nəzarət sisteminin güclü olması səbəbindən, daha yüksək icra əmsalına malikdirlər.

Dissertasiyada azadlıqdan məhrum edilmiş şəxslərlə bağlı mühüm universal beynəlxalq standartların müddəaları, o cümlədən Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 1988-ci il 9 dekabr tarixli 43/175 nömrəli qətnaməsi ilə təsdiq olunmuş "Hansı formada olmasından asılı olmayaraq tutulma və ya həbsə məruz qalan bütün şəxslərin müdafiəsinin prinsiplərinin toplusu", "Avropa penitensiar qaydaları" (2006-cı il redaksiyasında), Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 1985-ci il 29 noyabr tarixli 40/33 nömrəli qətnaməsi ilə təsdiq olunmuş "Yetkinlik yaşına çatmayanlar haqqında ədalət mühakiməsinin aparılması ilə bağlı minimal standart qaydaları" (Pekin qaydaları), Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən 1966-cı il 16 dekabr tarixdə qəbul edilmiş "Mülki və siyasi hüquqlar haqqında beynəlxalq pakt" və digər sənədlər təhlil edilərək, onların Azərbaycan Respublikasının qanunvericiliyinə implementasiyası prosesi tədqiq edilmişdir.

Avropa Şurası Parlament Assambleyasının 1257 saylı (1995) və Avropa Şurası Nazirlər Kabinetinin 1976-cı il 9 mart tarixli "Azadlıqdan məhrum edilməyə alternativ olan bəzi cəza növləri haqqında" (76) 10 qətnamələrində öz əksini tapmış tövsiyələr rəhbər tutularaq Azərbaycan Respublikasının qanunverici və məhkəmə təcrübəsində dəyişiklik olunması təklif edilərək azadlıqdan məhrumetmə cəzasının əvəzinə, azadlıqdan məhrumetməyə alternativ olan cəzaların daha çox təyin olunması məqsədəuyğun sayılır.

***Birinci fəslin ikinci yarımfəslində*** göstərilir ki, müvəqqəti saxlama yerlərində və istintaq təcridxanalarında saxlanılaraq azadlıqdan qısa müddətə məhrum olunma spesifikdir. Ona görə də, belə şəxslərin hüquqi statusu cəzaların icrası yerlərində cəza çəkən məhkumların hüquqi statusundan fərqlənir. Həbsdə saxlanılan şəxslərin hüquqi statusunun xüsusiyyətləri üç əlamətləri ilə səciyyələnir: 1) Şəxsin həbs edilməsinin əsasları Cinayət-prosessual Məcəlləsinin normaları ilə müəyyən edilir,

amma müvəqqəti saxlama yerlərinin və istintaq təcridxanalarının müdiriyyəti ilə həbs olunmuş şəxslər arasında yaranan hüquq münasibətlərinin tənzimlənməsi nə Cinayət-prosessual Məcəllədə, nə də Cəzaların icrası Məcəlləsinin normalarında nəzərdə tutulmamışdır. Qeyd olunan münasibətlər ayrıca xüsusi normativ hüquqi aktla - "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" 2012-ci il 10 iyul tarixli Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

Avropa Şurası Nazirlər Kabinetinin "Həbs edilmə" adlı 1965-ci il 9 aprel tarixli 65 nömrəli 11 qətnaməsinə əsasən hökümət şəxsi həbs edərkən həbsin bu prinsiplərə uyğun olmasını təmin etməlidir: bunun ciddi zərurətdən irəli gəldiyini, mütləq olmasını, vacibliyini və s. Bu istintaq və məhkəmə orqanlarından həbsin məzmunu ilə əlaqədar olmayan qətimkan tədbirlərinin tətbiqini tələb edir.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 2006-cı il 25 aprel tarixli əmri ilə təsdiq olunmuş "Məhkumların islah olunmasında ictimaiyyətin iştirakı və cəzanı icra edən müəssisələrin fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi" Qaydalarının Avropa Şurası Nazirlər Kabinetinin 2006-cı il 11 yanvar tarixli "Həbsdə saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Qətnaməsinin 7-ci bəndinə uyğunlaşdırılması tələb edilərək ictimai təşkilatların azadlıqdan məhrumetmə yerlərinə nəzarət olunmasında iştirakının nəzərdə tutulması məqsədəmüvafiq sayılır.

Dissertasiyanın ***birinci fəslinin üçüncü yarımfəsli*** azadlıqdan məhrum edilmiş şəxslərə yüksək keyfiyyətli hüquqi yardım göstərilməsi ilə bağlı çətinliklərin kökündən aradan qaldırılması problemlərinə həsr olunmuşdur. Azərbaycan Respublikası Konstitusiyasının 65-ci maddəsinə əsasən məhkəmənin məhkum etdiyi hər bir şəxsin özü barəsində çıxarılmış hökmə qanunla nəzərdə tutulan qaydada yuxarı məhkəmədə yenidən baxılması, habelə özünün əfv edilməsi və cəzasının yüngülləşdirilməsi haqqında müraciət etmək hüququ vardır.

Bununla belə, yoxsul məhkumlar yuxarıda göstərilən hüquqlarını tam realizə edə bilmirlər. Bunun başlıca səbəbi vəkillərin göstərdiyi xidmətin ödənilməsinə məhkumların maddi cəhətdən imkanlarının olmamasıdır. Məhkumların əksəriyyəti əhalinin kasıb təbəqəsinə aiddirlər, yəni iqtisadi, sosial və mədəni münasibətlərdə cəmiyyətdən təcrid

olunanlardır. Azadlıqdan məhrumetmə yerlərində iş yerlərinin olmaması məhkumlara (kişilər və qadınlar), İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa konvensiyasının 14-cü maddəsində qeyd olunan hüquqlarının həyata keçirilməsinə imkan vermir.

Bu baxımdan Avropa Şurası Nazirlər Kabinetinin 1993-cü il 8 yanvar tarixli "Əhalinin aztəminatlı təbəqələrinin hüquqi yardıma və ədalət mühakiməsinə effektiv müraciət etmələri haqqında" R (93) nömrəli tövsiyələrinin nəzərə alınması mühüm əhəmiyyət daşıyır.

Dissertasiya işinin ***birinci fəslinin dördüncü yarımfəsli*** məhkumların əməyinin və sosial təminatının tənzimlənməsinin beynəlxalq-hüquqi əsaslarına həsr edilmişdir. Azərbaycan Respublikası Cəzaların icrası Məcəlləsinin 8.2.3-cü maddəsinə görə məhkumların islah edilməsinin əsas vasitələrindən biri də ictimai faydalı əməkdir. Amma, cəzaların icrası müəssisələrində istehsalın ümumən aşağı düşməsi, təsərrüfat əlaqələrinin kəsilməsi və buna uyğun olaraq azadlıqdan məhrumetmə yerlərində işsizliyin artmasına səbəb olmuşdur ki, bu da Azərbaycan Respublikası Cəzaların icrası Məcəlləsinin 8.2.3-cü maddəsinin pozulması ilə nəticələnir. Avropa Penitensiar Qaydalarında (2006-cı il 11 yanvar redaksiyasında) göstərilir ki, həbs yerlərində əməyə daxili rejimin müsbət elementi kimi baxılmalı və ondan heç vaxt cəza kimi istifadə edilməməlidir. Penitensiar müəssisənin müdiriyyəti faydalı əmək üçün kifayət qədər şərait yaratmağa çalışmalıdır. Məhbuslara təklif olunan işin xarakteri onlara azadlığa çıxdıqdan sonra yaşamaq üçün qazanc əldə etmək qabiliyyətini saxlamağa və yaxşılaşdırmağa imkan yaratmalıdır. Məhbusları normal həyata hazırlamaq məqsədilə islah müəssisələrində əməyin təşkili və üsulları cəmiyyətdə olan fəaliyyətin təşkili və üsullarına maksimal uyğun olmalıdır. Bununla əlaqədar, azadlıqdan məhrum edilmiş məhkumların əmək konsepsiyasına, onun hüquqi tənzimlənməsinə düzəlişlər olunması məqsədəuyğun sayılır, ona görə ki, onlar yeni sosial tələbata cavab vermirlər.

Penitensiar iqtisadiyyatın inkişafının kompleks tədbirlərini nəzərdə tutan Azərbaycan Respublikasının Penitensiar sisteminin inkişaf proqramının qəbul edilməsi və həmin proqramda qüvvədə olan qanunvericiliyə əlavə və dəyişikliklərin edilməsinin nəzərdə tutulması zəruri sayılır.

***Birinci fəslin beşinci yarımfəslində*** məhkumların vicdan azadlığı və dini etiqad azadlığının təmin olunmasının beynəlxalq-hüquqi standartları tədqiq olunur. Amma, məhkumların psixoloji reabilitasiyasında dini təşkilatların böyük imkanlarından istifadə olunmur. Bu məsələ məhkumların islah və tərbiyə olunmasında xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 13-cü maddəsi məhkumların vicdan və dini etiqad azadlığının təmin edilməsi təminat verir. Məntəqə tipli cəzaçəkmə müəssisələrində məhkumların xahişi ilə onlara cəzanın icra edildiyi inzibati ərazi vahidi hüdudları daxilində ibadət yerlərinə getməyə icazə verilə bilər. Müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmış dini birliklərin din xadimləri məhkumların xahişi ilə cəzaçəkmə müəssisələrinə dəvət olunurlar. Məhkumlara cəzaçəkmə müəssisələrində dini ayinləri yerinə yetirməyə, dini ləvazimat və ədəbiyyatdan istifadə etməyə icazə verilir. Bu məqsəd üçün cəzaçəkmə müəssisəsinin müdiriyyəti müvafiq yer ayırır. Buna baxmayaraq, Azərbaycan Respublikasının Penitensiar Xidmətində kapellanlıq institutu tətbiq edilmir. Dinin məhkumların mənəvi dirçəlişində mühüm sosial institut olduğunu nəzərə alaraq, Avropa Penitensiar Qaydaları və avropa ölkələrinin təcrübəsi kontekstində dissertasiyada kapellanlıq institutunun yaradılması təklif edilir.

Dissertasiyanın **“Beynəlxalq-hüquqi standartlar və azadlıqdan məhrumetmə yerlərində zorakılığın və digər hüquqazidd hərəkətlərin kökündən kəsilməsi”** adlanan ikinci fəsli iki yarımfəsildən ibarətdir. ***“Məcburi saxlama yerlərində işgəncələrin aradan qaldırılması”*** adlı ***birinci yarımfəsildə*** qeyd olunur ki, işgəncələrin tətbiqi, zorakılıq və qəddarlığın təzahürü nəinki sosial-mənəvi, həm də kriminoloji problemdir. Bununla belə, hələlik qeyd olunanların kompleks şəkildə həll edilməsinə cəhd göstərilməmiş, işgəncələrin və digər qəddar münasibətlərin qarşısının alınması üçün çox az təkliflər verilmişdir. 28 dekabr 2001-ci il tarixdə Azərbaycan Respublikası Milli Məclis tərəfindən «Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında» Konstitusiya Qanunu qəbul edilmişdir. Müvəkkil təsisatının yaradılması və fəaliyyət göstərməsi üçün maddi və hüquqi baza yaradılmışdır. Bu aspektdə işgəncələrin və digər qeyri-insani və ya ləyaqəti alçaldan münasibətlərin və cəzaların aradan qaldırılması üzrə milli preventiv mexanizmi böyük fayda verə bilər.

Ümumi, xüsusi və fərdi səviyyədə xəbərdaredici təsirin xüsusiyyətlərindən çıxış edərək, obyektlər qismində həm işgəncə və digər zorakılıq tətbiq etməyə meyilli olan şəxslərin şəxsiyyəti, həm də potensial zərərçəkənləri (viktimoloji aspektdə) bu cür qəsdləri determinasıya edən amil, səbəb və şərtlər nəzərə alınmalıdır.

"İşgəncələrdən və digər qeyri-insani və ya insan ləyaqətini alçaldan münasibətlərdən və cəzalardan bütün insanların müdafiəsi haqqında" Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən qəbul edilmiş 1975-ci il 9 dekabr tarixli " Bəyannamənin effektiv realizə edilməsi və görülən tədbirlərə məqsədli və kompleks xarakter verilməsi üçün bəzi xarici ölkələrdə olduğu kimi cəmiyyətdə zorakılığın qarşısının alınması üzrə ümummilli proqram hazırlanmalıdır.

İkinci fəslin "***Azadlıqdan məhrumetmə yerlərində zorakılığın və submədəni ənənələrin kökündən kəsilməsi problemi"*** adlanan ***ikinci yarımfəslində*** əsas diqqət o fakta yetirilir ki, hal-hazıra kimi azadlıqdan məhrumetmə yerlərində məhkumlar arasında fiziki qəsdlə müşahidə olunan zorakılığın qarşısının alınması və onların həlli problemlərinin beynəlxalq-hüquqi standartları hazırlanmamışdır. Təəssüflər olsun ki, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin, həmçinin Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin statistik hesabatlarında azadlıqdan məhrumetmə yerlərində məhkumlar arasında törədilmiş cinayətlər, intizam pozuntuları və s. haqqında dərc edilmiş rəsmi məlumatlar öz əksini tapmamışdır. Bu da, qeyd olunan neqativ halların qarşısının alınması üçün effektiv tədbirlərin görülməsi imkanlarını məhdudlaşdırır.

Dissertasiyada qeyd olunur ki, məhkumlar arasında submədəni ənənələrin, cinayət aləminin xüsusiyyətlərinin, "həbsxana ənənələri"nə müvafiq məhkumların davranışının hərtərəfli öyrənilməsi qeyri-hökumət təşkilatlarına, beynəlxalq təşkilatlara, həmçinin azadlıqdan məhrumetmə yerlərinin müdiriyyətinə kriminoloji vəziyyəti dəqiq, vaxtında və obyektiv təhlil etməyə və onu proqnozlaşdırmağa imkan verər. Eyni zamanda, qeyd olunan neqativ faktların aradan qaldırılması üçün xüsusi beynəlxalq standartların hazırlanması tələb olunur, ona görə ki, onlar cəmiyyətin hüquqi və əxlaqi-mənəvi əsaslarını sarsıdır, dövlət institutlarının işini pozur, hüquq-mühafizə orqanlarının fəaliyyətinə nəzərəçarpacaq dərəcədə mane olur, ilk dəfə azadlıqdan məhrumetmə yerinə düşmüş şəxslərdə vahimə duyğusu, qorxu, hüquqi nihilizm yaradır. Çox təəssüflər olsun ki,

submədəni ənənələr nə məhkumlar, nə də azalıqdan məhrumetmə yerlərinin müdiriyyəti tərəfindən gizlədilir. Azadlıqdan məhrumetmə yerlərinin əməkdaşları submədəni ənənələrin kökündən kəsilməsinə həmişə cəhd göstərmirlər, bəzən isə "həbsxana ənənələri"ndən məhkumlar arasında daxili sabitliyin qorunmasında istifadə edirlər. Bu cür qaydalar azadlıqdan məhrumetmə yerlərində olan şəxslərin həyat və sağlamlığı, habelə mədəni və əxlaqi vəziyyəti üçün real təhlükə yaradaraq, onların hüququları ilə bağlı beynəlxalq standartların kobud surətdə pozulması ilə nəticələnir.

Məhkumların fiziki, psixoloji və seksual zorakılıqdan müdafiəsi ilə bağlı Avropa Penitensiar Qaydalarının (2006-cı il 11 yanvar tarixli redaksiyada) 25-ci bəndinin realizə edilməsi məqsədilə, tədqiqat işində qeyd olunan hallara qarşı aşağıdakı əsas mübarizə istiqamətləri müəyyən olunmuşdur: azadlıqdan məhrumetmə yerlərində cinayətkarlıq üzrə vahid informasiya sisteminin yaradılması və hüquq pozuntusu törədənlərin intizam məsuliyyətinə cəlb edilməsi; "qanuni oğru"ların və onların əlaltılarının məhkumların ümumi kütləsindən təcrid olunması təcrübəsinin davam etdirilməsi; cinayət ənənələrinə əməl edən şəxslərin qəsdindən məhkumların təhlükəsizliyinin qorunmasını təmin etmək; Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (Ombudsman) daimi monitorinqinə qoşulan elektron müşahidə kameralarını qurmaq; "oğru qanunlarına" müqavimət göstərmək üçün tərkibinə azadlıqdan məhrumetmə yerinin müdiriyyətinin, qeyri-hökumət təşkilatlarının nümayəndələrinin və məhkumların özlərinin daxil olduğu məhkumların və onların ailələrinin ictimai dəstək fondunun yaradılması.

Dissertasiyanın **"Ayrı-ayrı kateqoriya məhkumların hüquqlarının mühafizəsinin beynəlxalq-hüquqi standartları və cinayətlərin profilaktikası"** adlanan üçüncü fəsli üç yarımfəsildən ibarətdir. Bu fəslin ***birinci yarımfəslində*** azadlıqdan məhrumetmə yerlərində narkotik vasitələrin istifadəsinin qarşısının alınması və insan immunçatışmazlığı virusu infeksiyasının profilaktikası problemləri tədqiq edilir. Cəzaların icrası müəssisələrində narkomaniyanın profilaktikasının xüsusiyyətləri, belə müəssisələrdə psixoloji xidmət fəaliyyətinin təşkilinin hərtərəfli elmi təhlili ilə qırılmaz surətdə bağlıdır.

Məhkumlara bərabər tibbi xidmətin göstərilməsinin təmin edilməsi üçün "İnsan immun çatışmazlığı virusunun törətdiyi xəstəliyin (QİÇS) yayılmasının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının

Qanununa və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinə aşağıdakı məzmunda əlavələrin edilməsi məqsədəuyğun sayılır: 1) QİÇS-ə qarşı testin keçirilməsi yalnız könüllülük əsasında həyata keçirilir; 2) QİÇS-ə qarşı keçirilmiş testin cavabı müsbət olan məhkumlar azadlıqdan məhrumetmə yerlərində olduqları müddətdə məsləhət və onlara kömək edəcək digər müvafiq tibbi xidmətlərdən yararlanmaq hüququna malikdirlər; 3) Məhkumların və ya həbs yerində saxlanılan şəxslərin fiziki və psixoloji sağlamlığını mühafizə etmək səhiyyə işçilərinin vəzifə borcudur. Səhiyyə işçiləri digər şəxslərə göstərdikləri səviyyə və keyfiyyətdə müalicəyə ehtiyacı olan məhkumların və ya həbs yerində saxlanılan şəxslərin müalicəsini təmin etməlidirlər.

Üçüncü fəslin ***ikinci yarımfəslində*** azadlıqdan məhrum edilmiş daha zəif kateqoriya məhkumlarla bağlı beynəlxalq-hüquqi standartlar öz əksini tapmışdır. Aparılmış tədqiqatlar göstərir ki, yetkinlik yaşına çatmayanlar üçün tərbiyə müəssisələrində bəzi yetkinlik yaşına çatmayanlar qeyri-formal liderlər tərəfindən seksual zorakılığa məruz qalırlar. Aparılan müşahidələr, tərbiyə müəssisələrinin müdiriyyəti ilə söhbət onu təsdiq edir ki, seksual cinayətlərə görə məhkum olumuş yetkinlik yaşına çatmayanlar yetkinlik yaşına çatma ərəfəsində cəzaçəkmə rejimini kobud surətdə pozurlar, daim həyacanlı vəziyyətdə olurlar, bəzən hətta “düşmən” prosedurundan qaçmaq üçün cinayət törədirlər.

Psixi qüsurları olan şəxslər zəif məhkumların digər kateqoriyasına aid edilir. Cinayət cəzalarının icra yerlərində psixi pozuntulardan əziyyət çəkən şəxslərin hüquqlarının qorunması problemləri əksər dövlətlər üçün aktualdır. Bu hal Azərbaycan Respublikası üçün də aktualdır. Psixi pozuntuları olan məhkumlar Azərbaycan Respublikasının bütün Penitensiar Xidmət müəssisələri üçün böyük problem olmaqda davam edir. Qeyd olunan məhkumların psixi xüsusiyyətlərinə görə aşağı statusu digər məhkumlar tərəfindən onlara qarşı edilən zorakılıqla, şəxsi gigiyena qaydalarına əməl etməmələri ilə izah olunur.

Avropa Penitensiar Qaydalarına edilən İzahedici qeydlərdə (“Ruhi xəstələr və psixi cəhətdən qeyri-normal məhbuslar” adlanan 100-ci bənd) göstərilir ki, Qaydalar təcrübədə müxtəlif ölkələrdə tam həcmdə tətbiq olunmur. Ona görə ki, müxtəlif ölkələr hüquqi müəyyənliklə əlaqədar resursların çatışmamazlığı problemi ilə üzləşiblər. Azərbaycan Respublikasının əhalisi arasında psixi xəstəliklərin profilaktikası üzrə

dövlət proqramında psixi pozuntulardan əziyyət çəkən və azadlıqdan məhrumetmə yerlərindən azad olmuş şəxslərlə bağlı xüsusi psixiatrik reabilitasiya tədbirlərinin görülməsinin nəzərdə tutulması təklif olunur; Psixi pozuntusu olan şəxslər tərəfindən azadlıqdan məhrumetmə yerlərində cinayətlərin törədilməsinə qarşı kompleks profilaktik tədbirlər sisteminin hazırlanması.

Üçüncü fəslin ***üçüncü yarımfəsli*** milli qanunvericiliyə və Azərbaycan Respublikasında ömürlük azadlıqdan məhrumetmə növündə cəzaların icrasına həsr olunmuşdur. Qeyd edilir ki, hal-hazırda Qobustan həbsxanasında bütövlükdə götürdükdə məhkumların saxlanması şəraiti avropa standartlarına uyğundur. “Uzun müddətə azadlıqdan məhrum edilmiş məhkumlarla ünsiyyət haqqında” Avropa Şurası Nazirlər Kabinetinin 1976-cı il 17 fevral tarixli qətnaməsinində göstərilir ki, (76) ömürlük həbs cəzasına məhkum edilmiş şəxslərin cəzalarının azaldılaraq onların şərti olaraq vaxtından əvvəl azad edilməsinin qanunvericilikdə öz əksini tapması məqsədəuyğun olardı.

Cəza çəkən konkret şəxsiyyətlərin öyrənilməsi üçün elmi müəssisələrin və alimlərin metodiki köməyi və müvafiq surətdə onlara təsir edəcək optimal tədbirlərin hazırlanması tələb olunur. Aparılmış sorğu nəticəsində müəyyən olunmuşdur ki, məhkumların müəyyən hissəsi azadlığa çıxmaq perspektivinin olmaması, kamera şəraitinin həyat və sağlamlıq üçün təhlükəli olması, tibbi, sanitar xidmətlərinin aşağı səviyyədə olması və s. səbəblərə görə intihar etmək istəyirlər. Bir kamerada qalan məhkumlar arasında psixoloji uyğunluğun müəyyən olunmasının təşkil edilməsi lazımi səviyyədə deyildir. Məhkumlardan heç kim ictimai-faydalı əməyə cəlb olunmamıdır. Mühüm problemlərdən biri də zabit heyətinin, həkimlərin, o cümlədən psixoloqların çatışmamasıdır, baxmayaraq ki, həmin kateqoriya şəxslərin əmək haqları artmışdır. Qeyd edilən kateqoriya əməkdaşların əksəriyyəti məhkumlarla işləmək istəmirlər. Onların imtinasının səbəblərindən biri də həbsxana əməkdaşlarının zəif sosial müdafiəsidir və s.

**Нятиъя** щиссясиндя dissertasiya тядгигатына йекун вурулур, тяклиф вя тювсийяляр иряли сцрцлцр.

**Əlavədə** ömürlük həbs cəzasına məhkum edilmiş, cəzalarını Qobustan həbsxanasında çəkən 235 məhkumla aparılan sorğu təqdim olunmuşdur.

**Dissertasiya tədqiqatı ilə əlaqədar olaraq müəllif tərəfindən aşağıdakı elmi əsərlər dərc edilmişdir:**


1. “ Выявление на стадии предварительного расследования психических недостатков лиц, обвиняемых в совершении убийств // Heydər Əliyev Azərbaycan Respublikasının beynəlxalq aləmdə əməkdaşlığının banısıdir” mövzusunda elmi-praktiki konfransının materialları (12 may 2007-ci il). Bakı, 2007, стр. 279-284.
2. Международно-правовые проблемы противодействию применению пыток и других жестоких, бесчеловечных или унижающих достоинство видов обращения и наказания //Beynəlxalq hüquq və inteqrasiya problemləri, Elmi-analitik və praktiki jurnal, 2009 №3 (19), стр.55-61.
3. Проблемы применения международных стандартов общения осужденных к лишению свободы с внешним миром и их реализация в Азербайджанском законодательстве //Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri, Elmi məqalələr məcmuəsi, Aprel 2009, Bakı, стр.287-292.
4. Общая характеристика системы международных стандартов об обращении с осужденными // “Dövlət və hüquq quruculuğunun aktual problemləri” mövzusunda hüquq fakultəsi professor-müəllim heyətinin, aspirant, dissertant və magistrantların IX elmi-praktiki konfransının materialları (14 may), Bakı, 2009, стр. 107-111.
5. К проблеме имплементации международных стандартов исполнения пожизненного лишения свободы в пенитенциарной системе Азербайджанской Республики // Qanun jurnalı, Elmi-hüquq jurnalı, № 11 (187), 2009, стр.139-145.
6. К проблеме внедрения международных стандартов в пенитенциарных учреждениях Азербайджана по содержанию осужденных с психическими аномалиями // «Наука современность 2010». Сборник материалов Международной научно практической конференции. Часть 3. Новосибирск, 2010, стр.284-288.
7. Международно-правовые основы регулирования труда осужденных к наказаниям в виде лишения свободы на

определенный срок и пожизненное лишение свободы // Beynəl-xalq hüquq və inteqrasiya problemləri, Elmi-analitik və praktiki jurnal 2011, №4 (28), стр.36-41.

8. Психолого–криминологическая характеристика личности осужденных, склонных к суициду // "Dövlət və hüquq quruculuğunun aktual problemləri" mövzusunda 11-ci Respublika elmi-praktik konfransının materialları II cild, (11-12 may) Bakı-2011. стр.308-311.
9. Международно-правовые стандарты и законодательство Азербайджанской Республики относительно труда осужденных к лишению свободы //Bakı Dövlət Universitetinin Xəbərləri, Sosial Siyasi elmlər siyahısı №4, Bakı 2011, стр.94-109.
10. Bakı Dövlət Universitetinin Xəbərləri, Sosial Siyasi elmlər siyahısı №1, Bakı 2012. Международно-правовые стандарты обеспечения свободы совести и свободы вероисповедания осужденных, 69-77с.
11. Проблема искоренения насилия и субкультурных традиций в местах лишения свободы // Bakı Dövlət Universitetinin Xəbərləri, Sosial Siyasi elmlər siyahısı №2, Bakı 2012, стр.53-64.
12. Основные международно-правовые стандарты в отношении осужденных к лишению свободы // Оперативник (сыщик) ISSN 1999-2696 № 3(32) июль 2012, стр 58-60.
13. Проблема предотвращения распространения наркотических средств, ВИЧ-инфекций в местах лишения свободы // Bakı Dövlət Universitetinin Xəbərləri, Sosial Siyasi elmlər siyahısı №1, Bakı 2013. стр.38-47.
14. Основные международно-правовые стандарты в отношении осужденных к лишению свободы // Qloballaşma dövründə insan hüquqları və milli hüquq sistemləri. 10 dekabr beynəlxalq insan hüquqları gününə həsr olunmuş elmi-практик конфранс (13-14 декабр, 2012), Б., 2013, стр.333-336
15. К проблеме оказания правовой помощи осужденным // Правовые проблемы противодействия преступлениям и иным правонарушениям. РФ, Сургут, 2013, стр. 179-181.

# Обеспечение прав заключенных в местах лишения свободы: международные стандарты и законодательство азербайджанской республики

## РЕЗЮМЕ

Диссертация является первой ккомплексной монографической работой, данная работа специально посвящена проблеме обеспечения прав человека в местах лишения свободы.

Во **введении** диссертации обосновывается актуальность темы исследования, определяются объект, предмет, цели и задачи исследования, раскрываются научная новизна работы, ее теоретическая и практическая значимость, формулируются основные положения, выносимые на защиту, приводятся сведения об апробации проведенного исследования.

Первая глава диссертации – **«Основные положения международных договоров и действующего законодательства Азербайджанской Республики относительно правового положения осужденных к лишению свободы» -** состоит из пяти параграфов, в которых дана обощая характеристика международно-правовых стандартов в отношении правового положения осужденных к лишению свободы, рассмотрены проблемы охраны прав подозреваемых и обвиняемых, содержащихся в изоляторах временного содержания и следственных изоляторах, выявлены недостатки деятельности по оказанию квалифицированной правовой помощи осужденным, изложены международно-правовые основы совершенствования регулирования труда и социального обеспечения осужденных, а также международно-правовые стандарты обеспечения свободы совести и свободы вероисповедания осужденных.

Вторая глава диссертации – **«Международно-правовые стандарты и искоренение насилия и других неправомерных действий в местах лишения свободы» -** состоит из двух параграфов, в которых впервые рассмотрены общетеоретические проблемы предотвращение пыток в местах принудительного содержания

иискоренения насилия и субкультурных традиций в местах лишения свободы

Третья глава диссертации – **«Международно-правовые стандарты охраны прав отдельных категорий осужденных и профилактики преступлений» -** состоит из трех параграфов, где исследованы ппроблемы предупреждения распространения и наркотических средств, ВИЧ-инфекций в местах лишения свободы, применения международно-правовых стандартов относительно некоторых наиболее уязвимых категорий осужденных к лишению свободы, развития национального законодательства и практики исполнения наказания в виде пожизненного лишения свободы.

В **заключении** диссертации сделаны выводы относительно исследуемой проблематики.

**An ensuring of human rights in imprisonment places: international law and legislation of Azerbaijan Republic**

**SUMMARY**

Dissertation work is considered the first complex monographic work which is devoted to a question of ensuring human rights in places of imprisonment and research of its ties with the international standards.

In introduction was proved the actuality of the subject of dissertation work, its object, the purposes and tasks and also the theoretical and empirical bases, reveal scientific novelty of work, its theoretical and practical importance, the basic provisions submitted for protection are formulated, it had given the information on approbation of the research.

The first chapter of dissertation work is named "The basic provisions of international treatments and the legislation of the Azerbaijan Republic on legal status condemned to imprisonment". This chapter consists of five paragraphs in which are given a general characteristic of international legal standards on the condemned persons concerning whom it was chosen a punishment measure in the form of imprisonment, which were considered the problems of protection of the rights of suspects and the accused persons containing in temporary detention centers, shortcomings of activity are determined by rendering the qualified legal aid condemned, international legal bases of improvement of settlement of work and social security condemned persons, including international legal standards on ensuring freedom and conscience of religion of the condemned persons.

The second chapter of the dissertation which named "The international legal standards and elimination of violent and other unlawful actions in places of imprisonment consists of two paragraphs. For the first time here are investigated general-theoretical problems of elimination of tortures, violence and subcultural traditions in imprisonment places.

The third chapter of dissertation is named "The international legal standards of protection of the rights of separate categories condemned persons and prevention of crimes". There are investigated here the prevention of distribution of drugs and infectious diseases, application of international legal standards of a certain category of the condemned persons which was punished in the form of imprisonment. And there were also investigated the problems of development of the national legislation and practice in the field of execution of a measure of

punishment in the form of lifelong imprisonment. In the conclusion of the dissertation work are drawn the conclusions on studied problems.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**КЯМРАН КАМИЛЬ оглы САЛИМОВ**

# ОБЕСПЕЧЕНИЕ ПРАВ ЧЕЛОВЕКА В МЕСТАХ ЛИШЕНИЯ СВОБОДЫ: МЕЖДУНАРОДНЫЕ СТАНДАРТЫ И ЗАКОНОДАТЕЛЬСТВО АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Специальность: 5603.01**
**Международное право; права человека**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по праву**

**Баку – 2013**